AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

MƏDƏNİ İRSİN QORUNMASININ AKTUAL PROBLEMLƏRİ

BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSIN MATERİALLARI

KONFRANS "ŞUŞA İLİ"NƏ HƏSR OLUNUR

BAKI-2022

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

MƏDƏNİ İRSİN QORUNMASININ AKTUAL PROBLEMLƏRİ

BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSIN MATERİALLARI

Konfrans «ŞUŞA İLİ»NƏ həsr olunur

Konfrans Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11/01/2022-ci il tarixli, 03-11-14/15 saylı qərarına əsasən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində keçirilmişdir

Bakı – 2022

MINISTRY OF SCIENCE AND EDUCATION OF THE REPUBLIC OF AZERBAIJAN

AZERBAIJAN STATE UNIVERSITY OF CULTURE AND ARTS

CULTURE: PROBLEMS AND PERSPECTIVES

MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC-RESEARCH CONFERENCE

The conference is dedicated to CULTURAL HERITAGE

Baku – 2022

МИНИСТЕРСТВО НАУКИ И ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВ

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ОХРАНЫ КУЛЬТУРНОГО НАСЛЕДИЯ

МАТЕРИАЛЫ МЕЖДУНАРОДНОЙ НАУЧНО-ПРАКТИЧЕСКОЙ КОНФЕРЕНЦИИ

Конференция посвящена «ГОДОМ ГОРОДУ ШУША»

Баку – 2022

Elmi redaktor: *Elm və yaradıcılıq işləri üzrə prorektor, dosent* **Sədaqət Əliyeva**

Məsul katib: *Muzeyşünaslıq kafedrasının müdiri, dosent* **Yeganə Eyvazova**

Materialların tərtibi və dizaynı: *AMEA, İ.Nəsimi adına Dilçilik İnstitutu, Kompüter dilçiliyi şöbəsi.* **Sevil Süleymanlı**

EKSPERTLƏR

ОЛЬГА СЕРГЕЕВНА САПАНЖА
Доктор культурологии, профессор. Работает в Российском государственном педагогическом университете им. А.И. Герцена.

АУДРА-КРИСТИНА ИОСИФОВНА ЗАБУЛИОНИТЕ
Доктор философских наук. Доцент кафедры междисциплинарных исследований и практик в области искусств.

ANASTASIIA BESSARAB
Doctor of Science in Social Communications, Professor Department of Special Education and Psychology, Municipal Institution of Higher Education «Khortytsia NationalEducational Rehabilitation Academy» of Zaporizhzhia Regional Council, Zaporizhzhia, Ukraine

GÜNAY ƏFƏNDİYEVA
Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti.

ƏKBƏR MƏCİD OĞLU YOLÇUYEV
Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın sədr müavinidir. Dünya Gənc Türk Yazarlar Birliyinin Məsləhət Şurasınınbaşqanı, Azərbaycan Milli QHT Forumu İdarə Heyətinin İctimai əlaqələr və mətbuatla işin məsul üzvü, AYB NTK- nın sədr müavinidir.

KÖNÜL ƏZİZAĞA QIZI HƏBİBOVA
Filologiya üzrə fəlsəfə doktoru. Azərbaycan Milli Elmlər Akademiyası İ.Nəsimi adına Dilçilikİnstitutu Kompüter dilçiliyi şöbəsinin aparıcı elmi işçisi

RAHİBƏ ŞANXAY QIZI ƏLİYEVA
Memarlıq üzrə fəlsəfə doktoru, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun dosenti, "Memarlıq Abidələrinin qorunması və bərpa problemləri" şöbəsinin müdiridir.

MÜBARİZ ASLAN OĞLU SÜLEYMANLI
Fəlsəfə elmləri doktoru, Azərbaycan Dövlət Mədəniyyət vəİncəsənət Universitetinin professoru. ADMİU-nun "Sosial və mədəni fəaliyyət" kafedrasının müdiridir.

YEGANƏ MƏHƏMMƏD QIZI EYVAZOVA
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent. ADMİU-nun "Muzeyşünaslıq" kafedrasının müdiri vəzifəsində çalışır.

PhD / Dr. **Baha Ahmet YILMAZ**
BZT Academy & Dublin University & Ege Universitet

Süleyman Kaan YALÇIN
Doçent
Fırat Üniversitesi İnsani ve Sosyal Bilimler Fakültesi ÇagdaşTürk Lehçeleri ve Edebiyatları Bölümü Elazığ

BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSIN MATERİALLARI. "ŞUŞA İLİ". BAKI, ADMİU, 2022, 354 s.

TƏŞKİLAT KOMİTƏSİ

Ceyran Mahmudova	– ADMİU-nun rektoru, professor (sədr)
Nigar Rüstəmova	– Təhsil işləri üzrə prorektor, dosent
Sədaqət Əliyeva	– Elm və yaradıcılıq işləri üzrə prorektor, dosent
Gülşən Əliyeva-Kəngərli	– Beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektor, professor
Gülşən Qafarova	– Elm və yaradıcılıq-ifa işləri şöbəsinin müdiri, dosent
Kamilə Dadaş-zadə	– Musiqi tarixi və nəzəriyyəsi kafedrasının müdiri, professor
Aydın Talıbzadə	– Teatrşünaslıq kafedrasının müdiri, professor
Əli Əmirli	– Kinoşünaslıq və ekran dramaturgiyası kafedrasının müdiri, professor
Yeganə Eyvazova	– Muzeyşünaslıq kafedrasının müdiri, dosent
Aslan Xəlilov	– Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasının müdiri, dosent
Tamilla Əhmədova	– Sosial-mədəni fəaliyyət kafedrasının dosenti
Pərviz Kazımov	– Turizm və kitabxana-informasiya fəaliyyəti kafedrasının dosenti
İlqar Hüseynov	– Turizm və kitabxana-informasiya fəaliyyəti kafedrasının professoru
Elçin Cəfərov	– Teatrşünaslıq kafedrasının baş müəllimi
Mübariz Süleymanlı	– Sosial-mədəni fəaliyyət kafedrasının müdiri, professoru
Xaləddin Sofiyev	– Sosial-siyasi elmlər kafedrasının müdiri, dosent
Güllü İsmayılova	– Musiqi tarixi və nəzəriyyəsi kafedrasının dosenti

THE ORGANIZING COMMITTEE

Jeyran Mahmudova	– Rector of ADMIU, professor (chairman)
Nigar Rustamova	– Vice-rector for educational affairs, docent
Sadagat Aliyeva	– Vice-Rector for Science and Creative Affairs, docent
Gulshan Aliyeva-Kangerli	– Vice-rector for international relations and education, professor
Gulshan Gafarova	– Head of the Department of Science and Creative-Performance Works, docent
Kamila Dadash-zadeh	– Head of the department of music history and theory, professor
Aydin Talibzadeh	– Head of the theater studies department, professor
Ali Amirli	– Head of the department of film studies and screen dramaturgy, professor
Yegana Eyvazova	– Head of the museum studies department, docent
Aslan Khalilov	– Head of the Department of Fine Art History and Theory, docent
Tamilla Ahmadova	– Docent of the Department of Social and Cultural Activities
Parviz Kazimov	– Docent of the department of tourism and library-information activities
Ilgar Huseynov	– Professor of the department of tourism and library-information activities
Elchin Jafarov	– Head teacher of the Department of Theater Studies
Mubariz Suleymanli	– Head of the department of socio-cultural activity, professor
Khaleddin Sofiyev	– Head of the department of socio-political sciences, docent
Gullu Ismayilova	– Docent of the Department of Music History and Theory

©ADMİU 22

Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

05 yanvar 2022, 12:00

Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.

Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlamış Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılmışdır.

Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu.

Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni- mənəvi dəyərini nəzərə alaraq qərara alıram:

1. 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Şuşa İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 5 yanvar 2022-ci il

MÜNDƏRİCAT

QARABAĞIN İTİRİLMİŞ MƏDƏNİ İRSİNİN GERİ QAYTARILMASI PROBLEMLƏRİ

Maya Ağamirzə qızı Abdullayeva. UNİKAL MƏDƏNİ İRSİN AKTUAL ABİDƏSİ – ŞUŞA 12

Айтэн Тариэль кызы Салимов. ОБРАЗОВАНИЕ В ШУШЕ 17

Anar Mirsəmid oğlu Ağalarzadə, Gülüm Əzizova Əfqan qızı. ZƏNGƏZURUN EPİQRAFİK ABİDƏLƏRİ: ERMƏNİ YALANLARI VƏ TARİXİ GERÇƏKLİKLƏR 22

Faiq İslam oğlu İsmayılov. ŞUŞA ŞƏHƏRİNİN MƏHV EDİLMİŞ MEMARLIQ QURULUŞU VƏ ONUN YENİDƏN BƏRPA EDİLMƏSİ QAYDALARI 26

Baxış İslam oğlu Ələsgərov, _Yaqub Abbasqulu oğlu Səmədov. AZƏRBAYCAN XALQININ MƏDƏNİ İRSİNİN QORUNUB SAXLANILMASINDA ŞUŞA ŞƏHƏRİNİN ƏHƏMİYYƏTİ 32

Əsədulla Qüdrət oğlu Cəfərov. QARABAĞIN İLK SAKİNLƏRİ: AZIX, TAĞLAR, ŞUŞA, QURUÇAY, AŞEL 35

Mira Arif qızı Məmmədxanova. AZƏRBAYCAN MİLLİ XALÇA MUZEYİNİN ŞUŞA FİLİALINDA NÜMAYİŞ OLUNAN XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLİNDƏ ŞUŞADA TOXUNMUŞ SÜJETLİ XALÇALAR HAQQINDA 39

Rahibə Şanxay qızı Əliyeva. MƏDƏNİ İRSİN QORUNMASI – QARABAĞ ABİDƏLƏRİ 46

Sveta Nuru qızı Nuriyeva. ŞUŞADA DİASPOR GƏNCLƏRİNİN III YAY DÜŞƏRGƏSİ ..51

Ülviyyə Fazil qızı Şirinova. İŞĞAL ZAMANI XİLAS EDİLMİŞ EKSPONATLARIN BƏRPA PROBLEMLƏRİ 55

Yeganə Məhəmməd qızı Eyvazova. ŞUŞANIN "ŞƏHƏR-ABİDƏ" KONTEKSTİNDƏ DƏYƏRLƏNDİRİLMƏSİ 59

Sahibə Xəlil qızı Ələkbərova. TALAN VƏ MƏHV EDİLMİŞ QARABAĞ MUZEYLƏRİ ..65

Tahir Mehdixan oğlu Kərimli. ŞUŞA ŞƏHƏR MƏDƏNİYYƏTİNİN NADİR İNCİSİDİR ..69

Əminə Baba qızı Qədimova. YURDUMUZA MÜTLƏQ QAYIDACAĞIQ 74

Süleyman Kaan Yalçın. KARABAĞ AĞZINDAKİ YER VE MEKÂN ADLARININ ESKİ TÜRKÇEDEKİ İZLERİ 79

Gülara Yenisey. QARABAĞ – AZƏRBAYCANLA TÜRKİYƏNİN ORTAQ SƏNƏT OYLAĞI 81

Fərahilə Fazil qızı Babayeva-Şükürova. AZƏRBAYCANIN TARİXİ ABİDƏLƏRİNƏ QARŞI ERMƏNİ VANDALİZMİNƏ İSRAİL DÖVLƏTİNİN MÜNASİBƏTİ 82

Aslan Əkbər oğlu Xəlilov. "ƏSİRLİK"DƏN AZAD EDİLMİŞ DİNİ MEMARLIQ ABİDƏLƏRİMİZ MƏDƏNİ İRSİMİZ KONTEKSTİNDƏ 93

MƏDƏNİ İRSİN İDENTİFİKASİYASI, İNVENTARLAŞDIRILMASI VƏ RƏQƏMSALLAŞDIRILMASI

Lalə Asif qızı Yusifzadə. MƏDƏNİ İRSİMİZ – KEŞİKÇİDAĞ 93

Fazilə Hüseyn qızı Hüseynova. KEŞİKÇİDAĞDA TARİXİ İRSİMİZİN GƏLƏCƏYƏ ÖTÜRÜLMƏSİ 97

Nurlana Qüdrətdin qızı Bağırova. MƏDƏNİ İRS XXI ƏSR ASTANASINDA 101

Zaur Ələskər oğlu Cəfərov. PİR HÜSEYN XANƏGAHI – MƏDƏNİ İRS ABİDƏLƏRİNDƏN BİRİ KİMİ 106

Günel Firudin qızı Pirquliyeva. ŞABRANIN MƏDƏNİ İRSİNİN POPULYARLAŞDIRILMASINDA ÇIRAQQALA QORUĞUNUN ROLU 109

Мохинур Сирожиддиновна Максумова. ВИДЫ ГОРОДСКИХ ЛАНДШАФТНО-РЕКРЕАЦИОННЫХ ТЕРРИТОРИАЛЬНЫХ ОБРАЗОВАНИЙ И ИХ ОСОБЕННОСТИ 114

Гулраъно Равшан кызы Орифжанова. ОБЗОР ЭТНОКУЛЬТУРНОГО НАСЛЕДИЯ МУЗЕЕВ ХИВЫ 124

Mübariz Aslan oğlu Süleymanlı. MUZEY MƏDƏNİ İRSİN QORUNMASI VƏ AKTUALLAŞDIRILMASI İNSTİTUTU KİMİ 129

İlqar Həsrət oğlu Hüseynov. DÜNYA MƏDƏNİ İRSİNİN QORUNMASI PROBLEMİ 137

Nəzirə Məmmədqulu qızı Əliyeva. İNFORMASİYA CƏMİYYƏTİNDƏ RƏQƏMSAL MƏDƏNİ İRSİN QORUNMASININ AKTUALLIĞI 142

Kəmalə Ənvər qızı Məmmədova. "AZƏRBAYCAN" ELEKTRON KİTAB PLATFORMASI: KİTABXANA FONDLARININ TƏŞKİLİNƏ YENİ MARKETİNQ YANAŞMASI 146

Nazilə Abdulla qızı Məmmədova. 1918-Cİ İL AZƏRBAYCAN ƏRAZİLƏRİNDƏ HƏYATA KEÇİRİLMİŞ SOYQIRIMI HADİSƏLƏRİNİN TANIDILMASINDA "SOYQIRIMI MEMORİAL KOMPLEKSİ"NİN ROLU 151

Tamilla Hikmət qızı Əhmədova. MƏDƏNİ İRSİN AKTUALLAŞMA FƏLSƏFƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ 157

Zenfira Sərvər qızı Seyidova. "XAN SARAYI" DÖVLƏT TARİX-MEMARLIQ MUZEYİNİN EKSPOZİSİYASI 162

А.К.И.Забулионите. КУЛЬТУРНОЕ НАСЛЕДИЕ И КУЛЬТУРОЛОГИЯ. РОССИЙСКАЯ НАУКА О КУЛЬТУРЕ В ПОЗНАНИИ УНИВЕРСУМА КУЛЬТУР: ВОПРОСЫ И ПЕРСПЕКТИВЫ 166

Arzu Cahid qızı Xəlilzadə. İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ YENİ TEXNOLOGİYALARIN TƏTBİQİ MƏDƏNİ İRSİN QORUNMASINA TÖHFƏ KİMİ .. 172

Fariz Xəlilli. AZƏRBAYCANDA XANƏGAHLARIN ÖYRƏNİLMƏSİNƏ YENİ ÇAĞIRIŞLAR 176

Zibeydə Şöhrət qızı Hacıyeva. ABİDƏLƏRİN QORUNMASI VƏ TƏBLİĞİNDƏ YARANAN PROBLEMLƏR 182

Elfira Hacıbaba qızı Məlikova-Qurbanova. İSTİQLAL MUZEYİNDƏ QORUNAN QARABAĞ TARİXİ-MƏDƏNİYYƏT ABİDƏLƏRİ 187

Малахат Новруз кызы Фараджева. ИДЕНТИФИКАЦИЯ И СТРАТЕГИЯ РАЗВИТИЯ В СОЗДАНИИ ЦИФРОВОЙ БАЗЫ ДАННЫХ КУЛЬТУРНОГО НАСЛЕДИЯ НАСКАЛЬНОГО ИСКУССТВА КЕЛЬБАДЖАР 192

Сапанжа Ольга Сергеевна. КУЛЬТУРНОЕ НАСЛЕДИЕ В ОПТИКЕ КУЛЬТУРОЛОГИИ И МУЗЕОЛОГИИ 198

Омакаева Эллара Уляевна. АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ СОХРАНЕНИЯ И АКТУАЛИЗАЦИИ ИСТОРИКО-КУЛЬТУРНОГО НАСЛЕДИЯ РЕСПУБЛИКИ КАЛМЫКИЯ 202

Afət Allahverdi qızı Allahverdiyeva. MUZEY İRSİNİN KOMPLEKTLƏŞDİRİLMƏSİ MEYARLARI 209

QEYRİ-MADDİ MƏDƏNİ İRSİN AKTUALLAŞDIRILMASI

Aysel Vaqif qızı Həsənova. MƏDƏNİ İRSİN QORUNMASINDA REPOZİTARİYALARIN ROLU 213

Суси Мачдалена, Н.Картика, Фахми Лукман. БАТИК КАК ОДИН ИЗ КУЛЬТУРНЫХ НАСЛЕДИЙ ИНДОНЕЗИИ 218

Seymur Elman oğlu Süleymanov, Qərənfil Zeyqəm qızı Rzayeva. QEYRİ-MADDİ MƏDƏNİ İRSİN QORUNMASININ VACİB AMİLLƏRİ 223

Aida Əli Səttar qızı Hüseynova. XALQ MUSİQİSİ FESTİVALLARI MƏDƏNİ İRSİN QORUNUB SAXLANMASI VASİTƏSİ KİMİ 228

Həsən Abdulla oğlu Həsənov. ARXİV SƏNƏDLƏRİ UNİKAL İNFORMASİYAYA MALİK MƏDƏNİYYƏT SƏRVƏTLƏRİDİR 232

Elnarə İntiqam qızı Mazandarova. RƏSSAM RAİS RƏSULZADƏ YARADICILIĞINDA QARABAĞ MOTİVLƏRİ 238

Mehriban Arif qızı Əliyeva. QUBA XALÇAÇILIQ MƏKTƏBİNİN KEÇMİŞİ VƏ BU GÜNÜNÜN PERSPEKTİVLƏRİ 241

Rəhimə Elşad qızı Yaqubəli. QEYRİ-MADDİ İRS NÜMUNƏSİ OLARAQ FONO VƏ VİDEO SƏNƏDLƏRİN AKTUALLIĞI 247

Альбина Ростямовна Гатина. АКТУАЛИЗАЦИЯ НЕМАТЕРИАЛЬНОГО КУЛЬТУРНОГО НАСЛЕДИЯ НА ПРИМЕРЕ РАЗРАБОТКИ ИНТЕРАКТИВНОГО ЭЛЕКТРОННОГО КОНТЕНТА....................252

İlhamə Hicran qızı Səfərova. ARXİV SƏNƏDLƏRİNİN KLASSİK VƏ MÜASİR BƏRPA METODLARI....................257

Xəzər Atif oğlu Zeynalov. AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ QARABAĞ ZƏFƏRİNİN TƏCƏSSÜMÜ....................261

Könül Alı qızı Nəsibova. MƏDƏNİ İRSİN QORUNMASINDA ARXİV XİDMƏTİNİN ROLU....................265

Sevinc Qaçay qızı Əliyeva. XALQ RƏSSAMI ƏŞRƏF HEYBƏTOVUN QARABAĞ MƏNZƏRƏLƏRİNDƏ TƏBİƏT OBRAZININ RƏMZ-İŞARƏ SEMANTİKASI....................269

Xaləddin Əli oğlu Sofiyev. "QARABAĞNAMƏ"LƏR QARABAĞ XANLIĞININ ÖYRƏNİLMƏSİNDƏ ELMİ MƏNBƏ KİMİ....................273

Vasif Musa oğlu Adilov. ƏRƏB ALINMALARININ AZƏRBAYCAN VƏ TÜRKİYƏ TÜRKCƏLƏRİNDƏ TƏZAHÜR FƏRQLƏRİ....................280

MƏDƏNİ İRS – TURİZMİN İNKİŞAFININ POTENSİAL OBYEKTİ KİMİ

Nurlana Nurəddin qızı Kazımova. AZƏRBAYCANIN MƏDƏNİ-TARİXİ RESURSLARININ TURİZM POTENSİALI: BASQAL NÜMUNƏSİNDƏ....................285

Səma İkram qızı Alməmmədli. ORTA ƏSR AĞSU ŞƏHƏRİ DÖVLƏT TARİX-MƏDƏNİYYƏT QORUĞUNUN TURİZM POTENSİALI....................289

Aləmzər Pənah qızı Hüseynova. QƏDİM ŞƏMKİR ŞƏHƏRİNİN TARİXİ VƏ TURİZM İMKANLARI....................293

Aynur Yusif qızı Ələkbərova. ŞƏKİ DESTİNASİYASININ AZƏRBAYCAN TURİZMİNDƏKİ YERİ VƏ ONUN İNKİŞAF PERSPEKTİVLƏRİ....................298

Leyla Gadir gizi Majidova, Zarifa Yelmar gizi Aliveva. CULTURAL HERITAGE AS A POTENTIAL OBJECT OF TOURISM DEVELOPMENT....................303

Gülgün Elçin qızı Bağırova. TURİST XİDMƏTLƏRİ BAZARİNİN İNKİŞAFİNA İNNOVATİV TEXNOLOGİYALARIN TƏTBİQİ....................313

Günel Nizami qızı Həbibova. TURİZMİN İNKİŞAFINDA MƏDƏNİ İRSİN ROLU....................319

Səyavuş Elman oğlu Məhişov. REGİONAL TURİZMİN İDARƏ EDİLMƏSİNİN STRATEJİ ƏSASLARI....................322

Tərxan Fizuli oğlu Tahirli. AZƏRBAYCANIN TURİZM SAHƏSİNDƏ MƏDƏNİ İRS RESURSLARINDAN İSTİFADƏ STRATEGİYASI....................325

Abbasov Adil İsrail oğlu. QAX RAYONUNUN İLİSU KƏNDİNİN MƏDƏNİ İRS – BÖLGƏDƏ TURİZMİN İNKİŞAFININ POTENSİAL OBYEKTİ KİMİ....................329

MƏDƏNİ İRSİN QORUNMASININ NORMATİV-HÜQUQİ MEXANİZMLƏRİ

Sədaqət Ağasəfər qızı Əliyeva. HƏRBİ MÜNAQİŞƏLƏR NƏTİCƏSİNDƏ MƏDƏNİ İRSƏ DƏYMİŞ ZİYANIN ARADAN QALDIRILMASI PROBLEMLƏRİ 334
Aygün Rüstəm qızı Eyvazlı. AZƏRBAYCANIN MİLLİ-MƏDƏNİ İRSİNİN QORUNMASI PROBLEMLƏRİ 338
Kəmalə Zahid qızı Qurbanova. MƏDƏNİ İRSİN QORUNMASI BEYNƏLXALQ KONVENSİYALARDA 342
Sabir Mübariz oğlu Abbaszadə. TÜRK XALQLARININ MƏDƏNİ İRSİNİN QORUNMASI MƏSƏLƏSİ 345
Gunel Igbal gizi Jafarli. ON THE LEGAL BASIS OF CULTURAL HERITAGE PROTECTION 348

Elfira Hacıbaba qızı Məlikova-Qurbanova
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, muzeyşünas alim
ADMİU, Bakı
elfiramelikova@gmail.com

İSTİQLAL MUZEYİNDƏ QORUNAN QARABAĞ TARİXİ-MƏDƏNİYYƏT ABİDƏLƏRİ

Azərbaycan xalqı – dünyanın ən qədim xalqlarından biridir. Xalqımızın uzaq keçmişini və uzun əsrlər boyu keçmiş olduğu iqtisadi, siyasi və mədəni inkişaf yolunu öyrənməyin böyük əhəmiyyəti vardır.

Teymur Bünyatov

Açar sözlər: İstiqlal muzeyi, Qarabağ muzeyləri, tarix, mədəniyyət, abidələr

Ölkəmizin ərazisi ulu babalarımızın qoyub getmiş olduqları maddi-mədəniyyət qalıqları ilə zəngindir. Vətənimizin ərazisi 1 milyon ilə yaxın bir dövrdə ilk insanların məskənləri olmuşdur. Belə bir qədim dövrü, ancaq babalarımızın əməklərinin məhsulu olan maddi-mədəniyyət qalıqları vasitəsilə öyrənmək mümkündür. Bu məqsədlə də alimlərimiz geniş ərazimizdə tədqiqat işləri apararaq, qiymətli maddi-mədəniyyət abidələri əldə etmişlər ki, onlar da bizə uzaq keçmişimizdən xəbər verir.

Təsadüfi deyil ki, akademik İ.İ.Meşşaninov Azərbaycanın ərazisini zəngin və təbii muzey adlandırmışdır. Bu abidələrdən qədim yaşayış yerlərini, siklopları, qalaları, qayalar üzərindəki rəsmləri, kurqanları, geniş arxları, uzun sədləri, qədim şəhər xarabalarını və s. göstərmək olar" (2, s.3).

Tarixi abidələrin qorunması üçün yaradılan muzeylər maddi-mənəvi xəzinədir. Çünki xalqların çoxəsrlik tarixini gələcək nəsillərə ötürməkdə muzeylərin əhəmiyyəti əvəz edilməzdir.

Qarabağ müharibəsi zamanı yalnız bir neçə muzey öz fondlarından dəyərli eksponatların bir qismini çıxarmağa nail olmuşlar. Onlardan: "Cəbrayıl Tarix-Diyarşünaslıq muzeyi", "Füzuli rayon Tarix-Diyarşünaslıq muzeyi", Tər-Tər Tarix-Diyarşünaslıq muzeyi, və Şəmkir Tarix-Diyarşünaslıq muzeylərinin, Rahib Məmmədov adına Döyüş şöhrəti muzeylərinin eksponatlarının kiçik bir qismi xilas edilərək Azərbaycan İstiqlal Muzeyində mühafizəyə verilmişdir. Bu muzeylərin eksponatları müvəqqəti olaraq muzey fondlarında qorunub saxlanılır. Bu gün eksponatlardan yalnız Cəbrayıl Tarix-Diyarşünaslıq muzeyinin fondlarından 17.000-dən çox eksponatları muzeyin fondlarında mühafizə olunur və bir qismi muzeyin Qarabağ müharibəsinə həsr olunmuş V zalında "Müharibədən xilas olunmuş Xəzinə" adı altında nümayiş olunur. Bu eksponatlar müzəffər Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunan Cəbrayılda yerləşən muzeyin bərpa olunacağı günü gözləyir.

2014-cü ildə Horadiz şəhərində Füzuli muzeyi üçün yeni bina tikildikdən sonra 5000-dən artıq eksponat həmin muzeyə təhvil verilmişdir.

Azərbaycanın dövlətçilik tarixini özündə əks etdirən Azərbaycan İstiqlal Muzeyində ölkəmizin dövlətçilik tarixinə dair materiallarının toplanması istiqamətində gərgin işlər aparılır. İstiqlal muzeyi Azərbaycanda ilk Demokratik dövlətin yaradılmasından düz bir il sonra AXCP rəhbərliyi tərəfindən (7 dekabr 1919-cu ildə) açılmışdır.

1920-ci ilin aprelində Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra "İstiqlal" muzeyi ləğv edilsə də, ilk muzey "İstiqlal"ın başlanğıc fundamentinin mükəmməlliyi Dövlət muzeyinin yaradılması üçün bir zəmin oldu.

Azərbaycan Respublikası 1991-ci ilin oktyabrında (ikinci dəfə) öz müstəqilliyini elan etdikdən sonra muzey işi sahəsində də müstəqil siyasət yeritməyə başladı. Muzey 23 dekabr 1992-ci ilin sərəncamı ilə "İstiqlal" adını alaraq birinci muzeyin mənəvi varisi oldu. Yetmiş bir il sonra 1991-ci il yanvarın 9-da muzey müstəqilliyimizlə birlikdə bərpa edildi. Azərbaycanın görkəmli sənətşünas-alimləri Məmməd Ağaoğlunun və Hüseyn bəy Mirzəcamalovun təşəbbüsü ilə 1919-cu ildə yaradılan İstiqlal muzeyindən heç bir eksponat qalmasa da, yenidən fəaliyyətə başlayan muzey "İstiqlal" adını alaraq, birinci muzeyin mənəvi varisi oldu. (İstiqlal muzeyinin arxiv sənədində Azərbaycanın İstiqlal Muzeyinin ikinci dəfə 1989-cu ildə yaradıldıqda "Azərbaycanda inqilabi-demokratik hərəkatın tarixi" adlandırılması, 1991-ci ildə isə muzeyin adının Azərbaycanın İstiqlal Muzeyi adı ilə əvəz edilməsi qeyd edilir. Yəni muzeyə tarixi adı qaytarılmışdır). 1993-cü ilin fevralında "Muzey mərkəzi"ndə muzey ekspozisiyasının təntənəli açılışı oldu.

Azərbaycanda muzey tarixinə həsr edilmiş əsərlərdə, tarixi fakt saxlanılaraq, ilk muzey olaraq "İstiqlal muzeyi"nin fəaliyyəti xüsusi qeyd edilir. Arxiv sənədlərində Dövlət muzeyi: "Doğma Diyarın tarixi muzeyi – İstiqlal" kimi adlandırıldı.

Azərbaycanda İstiqlal muzeyinin yenidən yaradılmasında əsas məqsəd ən qədim zamanlardan müasir dövrümüzə qədər Azərbaycan xalqının öz istiqlalı uğrunda apardığı mübarizəni ardıcıl olaraq əks etdirməkdədir.

Muzeydə yeni yaradılan ekspozisiyaların müasir tələblər baxımından təkmilləşdirilməsi, fondların zənginləşdirilməsi üzrə iş yeni mərhələyə qədəm qoydu. Muzey yenidən formalaşdığı zaman aparılan ağır işlər nəticə verdi. Muzeyə yenidən iyirmi mindən çox eksponat toplandı. Onların arasında: Dövlət arxivi, kino-foto arxivindən sənədlər, eləcə də şəxsi arxiv materialları böyük yer tutur. Son göstəricilərə görə, muzey işçilərinin səyləri nəticəsində 23000 eksponat toplanmışdır.

Bunlar nadir sənədlər, fotoşəkillər, numizmatik kolleksiyalar, bədii əsərlər və digər əşyalardır. Muzeydə dövlətçilik, ilk demokratik respublika, azərbaycanlıların Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı, məsələn, Cənubi Azərbaycanda milli-azadlıq hərəkatına həsr edilən ekspozisiyada nümayiş edilən materiallar, tarixçi Lütfəli Ərdəbili və Müdafiə Naziri, "21 Azər" hərəkatının rəhbəri Cəfər Kavianın oğlu Marks Kavianın şəxsi arxivlərindən verilən sənədlər əsasında toplanmışdır.

Stalin repressiyasının qurbanları, İkinci Dünya müharibəsinin qəhrəmanları, 20 Yanvar şəhidləri və Qarabağ müharibəsi haqda dəyərli mənbələr vardır. 1990-cı il 20 Yanvar və Qarabağ müharibəsi şəhidlərinin, Milli Qəhrəmanların ailələri tərəfindən muzeyə çox sayda şəxsi sənədlər verilmişdir.

Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsində əldə olunan zəfər Azərbaycan İstiqlal muzeyinin əsas istiqamətlərindən biri olmuşdur. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 3 dekabr 2020-ci il tarixli Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında imzalanan sərəncamına əsasən Zəfər muzeyinə hərbi qənimətlərin, Vətən müharibəsi şəhidlərinə, qazilərinə, müharibə iştirakçılarına məxsus əşyaların toplanılması Azərbaycan İstiqlal muzeyinə həvalə edilmişdir. Bu günə qədər yeni yaradıcılıq Zəfər muzeyinin fondunun komplektləşdirilməsi məqsədi ilə 7744 əşya toplanılmışdır.

Azərbaycan İstiqlal muzeyi 44 günlük Vətən müharibəsində canlarını Vətən uğrunda fəda edən şəhidlərimizi tanıtmaq, onların, xatirəsini əbədiləşdirmək, vətənpərvərliyin təbliğatı məqsədi ilə 2012-ci il ərzində bir çox layihələr həyata keçirib. İlkin olaraq baş tutan "Zəfər qəhrəmanlarımızı tanıyaq" layihəsi çərçivəsində şəhidlərimizin həyatı və döyüş yolu haqqında sosial şəbəkə ünvanlarında paylaşılmışdır.

2021-ci ilin oktyabr ayından etibarən başlanan və hələ də davam edən "Qəhrəmanlar can verir, yurdu yaşatmaq üçün" adlı növbəti layihə çərçivəsində keçirilən tədbir-sərgilərdə Vətən müharibəsi şəhidlərinə məxsus, muzeyin fondlarında qorunub saxlanılan müxtəlif şəxsi əşyalar nümayiş olunur.

Qarabağın ayrılmaz parçası olan mədəniyyət paytaxtımız Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar Cənab Prezident İlham Əliyevin 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında sərəncamına əsasən də Azərbaycan İstiqlal muzeyi tərəfindən bir çox tədbirlər, sərgilər, virtual layihələr həyata keçirilmişdir.

2022-ci il may ayının 17-də təşkil olunan Şuşa ilinə həsr olunmuş "Şuşa, sən azadsan!" adlı sərgidə əslən Şuşadan olan, yaradıcılığını Qarabağa həsr edən peşəkar rəssamlara – Zaur Mirzəyevə, Ülkər Əbülfətə, Xəyalə Əhmədovaya, Vüsal Allahverdiyevə ~~aya~~ məxsus 17 əsər – təsviri və tətbiqi sənət nümunələri nümayiş olunmuşdur.

Azərbaycan İstiqlal muzeyinin sosial şəbəkə ünvanlarında keçirilən bir çox virtual layihələrdən biri də məhz "Şuşa – Qarabağın dünəni, bu günü, sabahı" adlı layihədir.

Bu ilin fevral ayından etibarən başlanan bu günə qədər davam edən virtual layihənin birinci mərhələsi çərçivəsində mədəniyyət paytaxtımız Şuşanın tarixi, tarixi şəxsiyyətləri, memarlıq abidələri, mədəniyyəti, incəsənəti haqqında hazırlanmış 70-ə yaxın müxtəlif təqdimatlar hər üç dildə – Azərbaycan, rus, ingilis dillərində mütəmadi olaraq muzeyin sosial şəbəkə ünvanlarından paylaşılır.

"Şuşa-Qarabağın dünəni, bu günü, sabahı" layihəsinin sentyabr ayından etibarən başlanan ikinci mərhələsində isə zəngin Qarabağ folkloruna məxsus müxtəlif lətifələr, əfsanələr, miflər haqqında video-çarxlar hazırlanaraq muzeyin sosial şəbəkə izləyicilərinə təqdim olunur.

Qısa bir zaman ərzində izləyicilər tərəfindən böyük maraqla qarşılanan layihə müxtəlif internet xəbər saytları: "Azərtag.az", "Xalq qazeti.az", "Medeniyyet.az", "sia.az", "Şərq qapısı.az" və s. tərəfindən paylaşılmağa davam edir.

Muzeyin əsas iş istiqamətlərindən biri də, muzeyə uşaq, yeniyetmə və gənclərin cəlb edilməsidir. İstiqlal muzeyi bu illər ərzində təşkil edərək keçirdiyi intellektual tədbirlərə: müx-

təlif məktəbləri, kollec tələbələrini, Rəssamlıq Akademiyası, Mədəniyyət və İncəsənət Universiteti, Turizm və menecment Universiteti, Qərb Universiteti, Pedaqoji Universitet və yaradıcılıq birlikləri tələbələrini də cəlb etmişdir.

İstiqlal muzeyi Azərbaycanın bölgələrində aparılan işlərə böyük diqqət ayırır. Muzey əməkdaşları regional muzeylərə daim metodiki yardım göstərərək onları birgə əməkdaşlığa cəlb edir. Azərbaycan İstiqlal muzeyinin əməkdaşları yerlərdə tarix-diyarşünaslıq muzeyinin əmək-daşlarına muzey işi sahəsində treninqlər təşkil edir və metodiki tövsiyələr verirlər. Məhz bu istiqamətdə səy göstərərək çalışan muzey əməkdaşlarını – 1980-ci ildə yaradılan "Muzey işi üzrə Elme Metodiki Mərkəz"in və ona rəhbərlik edən Valentin Yakovleviç Qarnikin davamçıları saymaq olar.

Hazırda Azərbaycan İstiqlal muzeyi yeni layihələr planlaşdırır və öz fəaliyyətini hərtərəfli davam etdirir.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan İstiqlal muzeyinin 2022-ci il III rüb ərzində Elmi kütləvi işlər şöbəsinin hesabatı
2. Bünyatov Teymur. Azərbaycanın uzaq keçmişinə səyahət. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı - 1957, 64 s.
3. Məlikova (Qurbanova) E. Azərbaycan muzeyşünaslığı (Monoqrafiya). I cild, Bakı "Elm", 2021, 232 səh.
4. Məlikova (Qurbanova) E. Azərbaycan muzeyşünaslığı (Monoqrafiya). II cild, Bakı "Elm", 2022, 464 səh.
5. azertag.az https:// azertag.az >xeber> İstiqlal_
6. https:// azertag.az>xeber> Azerbay...
7. https:// az.m.wikipedia.orq>wiki
8. anl/az http://www. anl. az >meqale >may
9. medeniyyet.az https:// medeniyyet.az >page > news

Elfira Qadjibaba gizi Malikova-Qurbanova

KARABAKH HISTORICAL AND CULTURAL MONUMENTS STORED IN THE ISTIGLAL MUSEUM

Summary: During the Karabakh war, only a few museums managed to remove some of the valuable exhibits from their collections. Among them: "Gabrayil Museum of History and Local History", "Fuzuli District History – Local History Museum", Tar-Tar History – Local History Museum, Shamkir History - Local History Museum, and a small part of the exhibits of the Museum of Battle Glory named after Rahib Mammadov were saved and preserved in the Azerbaijan Independence Museum. given. The exhibits of these museums are temporarily preserved in museum funds. These exhibits are waiting for the day when the museums liberated from occupation by the victorious Azerbaijan Army will be restored.

Key words: İndependence museum, museum Karabax, history, kulture, monuments

Эльфира Гаджибаба кызы Маликова-Курбанова

КАРАБАХСКИЕ ИСТОРИКО-КУЛЬТУРНЫЕ ПАМЯТНИКИ ХРАНЯЩИЕСЯ В МУЗЕЕ ИСТИГЛАЛ

Резюме: Во время Карабахской войны лишь немногим музеям удалось изъять часть ценных экспонатов из своих коллекций. Среди них: "Габраильский историко-краеведческий музей", "Историко-краеведческий музей Физулинского района", "Историко-Тертерский – краеведческий музей", "Историко-Тертерский – краеведческий музей", "Шамкирский историко-краеведческий музей", и небольшая часть экспонатов Музея Боевая Слава имени Рахиба Мамедова были спасены и сохранены в Музее Независимости Азербайджана. Экспонаты этих музеев временно хранятся в музейных фондах. Эти экспонаты ждут того дня, когда музеи, освобожденные от оккупации победоносной Азербайджанской Армией, будут восстановлены.

Ключевые слова: музей Истиглал, музеи Карабаха, история, культура, памятники